# Teatr forumundan doğan ümidlər

## yaxud yeni mövsüm qarşısında düşüncələr

İlham RƏHİMLİ
ilham1949@bk.ru

**Artıq Azərbaycan teatrlarının böyük əksəriyyəti 2023–2024-cü il mövsümünün açılışına hazırlaşır. Bu yaradıcılıq pilləsinə inamla, məsuliyyətlə hazırlaşanlar da var, sadəcə olaraq, məzuniyyətdən qayıdıb adi şəkildə işə başlamaq kimi yanaşanlar da. Mürəkkəb yaradıcılıq planlarını reallaşdırmaq barədə ciddi yaradıcılıq axtarışlarına qatlanan teatrlar da var, “necə olursa-olsun, təki təzə olsun”, deyib, zəif, sadə süjetli, az ifaçı olan pyes axtarışına üstünlük verən kollektivlər də.**



Hamısına uğurlar diləyirəm, amma di gəl ki, “dövlər teatrı” adlandırdığımız bütün səhnə ocaqlarında yüksək sənət uğrunda mübarizə əsas meyardırmı? Doğrudanmı onların hamısı yaradıcılıq qələbəsi üçün hər cür axtarış cəhdlərinə cəsarətlə yanaşırlar? Suallara birbaşa cavab vermək çətindir və bu qəlizliyin də bir xeyli səbəbləri var.

Teatrsevərlərə bir daha xatırladım ki, bu il aprelin 14-də Adil Kərmli Azərbaycan Respublikasının Mədəniyyət naziri təyin olundu. Az keçmədi ki, nazirlik teatr və kino forumları keçirdi. Forumlar çox peşəkarcasına, demokratcasına, tənqidə, təkliflərə, iradlara açıq şəkildə keçirildi. Onlarla məruzəçi (teatrşünas, kinoşünas, aktyor, rejissor, operator, dramaturq, ssenarist, kollektiv rəhbəri) müxtəlif mövzularda çıxışlar etdilər. Hiss olunurdu ki, yeni rəhbərlik bu sahələrdə həlli vacib problemləri üzə çıxarmaq, imkan dairəsində, müəyyən zaman çərçivəsində qüsurları aradan qaldırmaq, sənət ocaqlarının yeni yaradıcılıq platformasını və konsepsiyanı müəyyənləşdirmək və həmin istiqamətdə fundamental tədbirlər görmək niyyətindədir. Hörmətli nazirin forumda, eləcə də müxtəlif sənət ocaqlarının kollektivləri ilə görüşlərində bu sevindirici və ümidverici münasibəti, istəyi açıq-aydın görmək olur.

Nazirliyin niyyəti həm ümidvericidir, həm də bütün teatr kollektivlərindən yeni prinsiplərlə işləməyi tələb edir.

Əminəm ki, tədricən bu prosesin ilk çığırlarını görəcək, monumental, parlaq qələbələrə aparacaq magistral yolun üfüqlərini hiss edəcəyik. Mən yalnız teatrımızın bəzi problemləri barədə öz qeydlərimi bildirmək istəyirəm. Yeri gələrsə, səriştəli peşəkarlarla mətbuatda, televiziyada səmərəli mübahisə-dialoqlar aparmağı da məqsədəuyğun sayıram.

Teatr forumunda mən də çıxış etdim və müəyyən problemlərə, nisbətən kiçik görünən məsələlərə, gündəlik qayğılardakı boşluqlara şəxsi münasibətimi bildirdim. Müəyyən real, həmçinin ilk baxışda mübahisəli təkliflər də irəli sürdüm. Həmin problemlərin, məsələlərin, təkliflərin eləsi var ki, cari teatr mövsümündə aradan qaldırıla bilər. Eləsi var ki, onun reallaşması üçün nəinki aylar, hətta illər lazımdır. Elə mətləblər da var ki, onlara nail olmaq üçün Mədəniyyət Nazirliyi dövlət və hökumət qarşısında konseptual şəkildə məsələ qaldırmalıdır və ciddi mailiyyə məsrəfi ilə bağlı olduğuna görə problemin həlli yollarında hökumətin bir sıra qurumları müştərək çalışmalıdırlar.

Müəyyən problem və çatızmalıqla bağlı acı reallığı qəbul etməliyik və mütləq yüksək səviyyədə, yəni başda Mədəniyyət Nazirliyi və nazir Adil Kərimli olmaqla, mövcud problemlərin həlli yollarını inamla, səbrlə, idrakla tapmaq mümkündür. Həll yollarını tapıb reallaşdırmaq üçün sərt, lakin qətiyyətli, səmərəli, perspektivli addımlar atmaqdan başlamaq lazımdır. Bir daha xatırladıram ki, mövcud qüsuraların hamısını qısa müddətdə həll etmək qeyri-mümkündür. Problemin həcmindən və mahiyyətindan asılı olaraq onların həllinə aylarla, hətta bəzən illərlə vaxt lazımdır. Bunu tezbazar, ümumiyyətlə, hər şeyi Mədəniyyət Nazirliyindən gözləməklə həll etmək də real deyil. İstəklərimiz o zaman reallaşar ki, hər şey nazirlikdən umulmasın, kollektivlər öz fəaliyyətlərində onlardan asılı olan dəmir nizam-intizamlı yaradıcılıq fəaliyyətlərindəki boşluqları aradan qaldırmalıdırlar.

Fikrimcə, çağdaş Azərbaycan teatrlarının fəaliyyətlərinin səviyyəsinə əsaslanaraq onları 4 qrupa bölmək olar:

a) **Reanimasiyada olan teatrlar.** Nə qədər ağrılı-acılı olsa da, onlar morqun bir addımlığındadır. Kompleks məsləhətləşmə, səriştəli peşəkarların “konsiliumu” ilə vəziyyətdən çıxış yolu tapmaq lazımdır. Ehtiyac olarsa, real durum tələb edərsə, hər cür narazılıqların fövqündə durub, sərt və qətiyyətli addımlar atılmasına qərar verilməlidir.

b) **Ciddi cərrahiyyə əməliyyatına ehtiyacı olan teatrlar.** Cərrahiyə əməliyyatı bir şərtlə uğurlu nəticə verər ki, “cərrah bıçağı” yaradıcı, cəsarətli və qətiyyətli peşəkarların əlində olsun.

c) **Terapevtik müalicəyə ehtiyacı olan teatrlar.** Bu istiqamətdə ciddi tədbirlər həyata keçirilməli, mövcud reallığın fəsadları üzə çıxarılmalı, yerində saymağın, ətalət simptomlarının dəqiq diaqnozunu qoyub profilaktik “müalicə” tədbirləri görülməlidir.

ç) **Qabaqcıl, lakin müəyyən yeniləşmə, təmizlənmə tədbirlərinə ehtiyacı olan teatrlar.** Onların perspektivli və fundamental yaradıcılıq konsepsiyası ilə işləmələrinə nail olunmalıdır. Fəaliyyətlərində yaradıcılıq nizam-intizamını yeni bədii-estetik tələblərlə gücləndirmək lazımdır. Həmin kollektivlərə göstərilən dövlət qayğılarında qətiyyətlə prinsipiallığı əsas götürmək, boşluqları aradan qaldırmaq vacibdir.

Forumda maaşların azlığı, vergi və kommunal xərclərin çoxluğu barədə söhbətlər də getdi. Ümidvaram ki, nazir Adil Kərimli imkan dairəsində bu işlərin qaydaya qoyulması üçün respublikanın əlaqədar qurumları ilə məsləhətləşmələr aparacaq, optimal variantın tapılmasına cəhd göstəriləcəkdir. Ancaq dostlar, gəlin hər kiçik qayğı üçün nazirliyi günahlandırmağa tələsməyək, özümüz də yaradıcılığa münasibətlərimizi kökündən dəyişməliyik. Dövlətin teatrlara göstərdiyi qayğıların (fəxri adlar, prezident mükafaları, prezident təqüdləri və s.) müqabilində bəzən teatrların verdikləri məhsuldarlıq, təəssüflər ki, çox-çox aşağı olur. Necə deyərlər, iddia çox, məhsuldarlıq az. Teatr xadimləri əksər vaxtlarda yerli-yersiz Mədəniyyət Nazirlyindən gileylənirlər. Bu gileylərin bir qismi haqlıdır. Ancaq, nədənsə, kollektivlərin özündə mövcud olan ciddi problemlərdən, xoşagəlməz hallardan danışılmır. Reallıqda isə daim nazirlikdən nəsə tələb olunur. Zənnimcə, kollektivlər vaxtaşırı daxili problemlərindən danışmalı, təsirli tədbirlər görməlidirlər ki, Mədəniyyət Nazirliyi də lazımi köməklikləri həyata keçirə bilsin. Mövcud qüsurlardan bir neçəsini xatırlatmaq istərdim.

Əvvəlcə onu deyim ki, hər il onlarca teatr işçisinə (rejissor, aktyor, teatrşünas, teatr rəssamı) prezident mükafatı verilir. Xüsusi xidmətləri olan sənətkarlara fərdi prezident təqüdü ayrılır. Bunun müqabilində teatr xadimlərinin iş prinsipləri, fəaliyyət dərəcələri, fundamental konsepsiyaları nədən ibarətdir? Bu qayğının müqabilində yaradıcılıq məhsuldarlığı hansı səviyyədədir? Teatrların bütün işlərdə nazirliyi qınaması ədalətlidirmi?

1. Bəzi hallarda hansısa teatr rəhbərlyinin subyektivliyi ucbatından fəxri adların təqdimatında qeyri-obyektivliyə yol verilir. Nəticədə səhnədə daha səmərəli fəaliyyət göstərən, daha çox rol oynayan aktyor kənarda qalır. Oynadığı səhnə obrazlarında, çəkildiyi bir-iki filmdə parlaq uğur qazana bilməyən aktyorların Əməkdar artist, hətta bəzən Xalq artisti fəxri adlarına layıq görülmələri təəccüb və narazılıq doğurur. Bəzi cəfakeş aktyorlara isə teatrların rəhbərlikləri qayğı göstərmədikləri üçün təqdimat siyahılarında adları yer almır.

2. Teatrlarda prezident mükafatı alan elə Xalq artisti var ki, aylarla, hətta illərlə səhnəyə çıxmır. Bəs nə üçün vicdanları belələrini vadar etmir ki, aldıqları prezdient mükafatından imtina etsinlər? Və yaxud, illərlə səhnəyə çıxmayan aktyor-aktrisa nə üzlə kollektivdən maaş alır? Hətta aylarla, illərlə teatrın qapısını açmayan “sevimlilər” var ki, kimlərinsə himayəsində kölgələnirlər, danışanda, mətbuata müsahibə verəndə yüksək sənət kriteriyalarından dəm vururlar. Təəssüf doğuran odur ki, bu ərköyünlüyü edənlərin əksəriyyəti istedadı olan, yaradıcılıqlarına ümid bəslənilən sənətçilərdir. Beləəri ciddi işə cəlb edilməli, onların “cığallıqlarına” son qoyulmalıdır. Unutmayaq ki, belə xoşagəlməz hallar kollektivdə haqlı narazılıqlar yaradır.

3. Rejissorlar öz bioqrafiyalarını zənginləşdirmək üçün deyil, truppanın daha da formalaşmasına təkan verəcək, kollektivin yaradıcılıq qələbəsinə çevrilə biləcək, hansısa aktyorun sənətdə boy artımına zəmin yaradacaq əsərlərə müraciət etməlidirlər. Bəzən repertuar seçimində truppanın potensial yaradıcılıq gücü nəzərə alınmır.

4. Rejissorların “dostbazlıqla”, müəyyən təmənna ilə rol bölməsini kökündən ləğv etmək lazımdır.

5. Teatrların bəzi aparıcı aktyorlarının “diktəsi”, “ərköyünlüyü”, hətta “hökmranlığı” ilə repertuar qurmaq siyasətinə son qoyulmalıdır. Bunun acı nəticələri göz qabağındadır.

6. Əgər teatrda Yaşar, Almaz (“Yaşar”, “Almaz”, Cəfər Cabbarlı), Natəvan (“Natəvan”–İlyas Əfəndiyev), İsgəndər, Molla Abbas (“Ölülər” və “Dəli yığıncağı” – Cəlil Məmmədquluzadə), Otello (“Otello”, Vilyam Şekspir)... yoxdursa, yaxud bu obrazlar üçün aktyorlar düzgün seçilməyibsə, orada möhtəşəm sənət qələbəsindən danışmaq səmərəsizdir.

7. Teatrlar mütləq klassik və çağdaş əcnəbi müəlliflərinin məşhur pyeslərini tamaşaya hazırlamaqla mövzu rəngarəngliyini artırır, dünya dramaturqlarının özəl bədii və üslub xüsusiyyətləri ilə tamaşaçıları tanış edir, aktyorlar fərqli bədii-estetik obrazları oynamaqla yaradıcılıqlarını zənginləşdirirlər. Ancaq burada da müəyyən bir ölçü, hədd olmalıdır. Son 23 ildə, yəni XXI əsrdə Akademik Milli Dram Teatrının hazırladığı 111 pyesin 48-i əcnəbi əsəridir. Son on ildə 7 uşaq tamaşası oynanılıb ki, onun da dördü tərcümədir. Gənc Tamaşaçılar Teatrının oynadığı 135 əsərin 56-sı əcnəbi müəlliflərin əsərləridir (bura xarici əsərləri səhnələşdirmələr də daxildir). Əcnəbi əsərlər hər iki teatrda 40 faizdən çoxdur.

8. Mövzunun aktuallığını bəhanə edib onun arxasında gizlənən teatrlar repertuara zəif əsərlərin yol açmasına imkan yaradırlar. Bütün hallarda əsas meyar prinsipial yaradıcılıq olmalıdır.

9. Aktyorların rejissorluq iddiaları əksər hallarda səmərə vermir, “cansız”, “quru”, emosiyadan məhrum tamaşalar repertuara ayaq açır. Bu işdə ciddi qanun-qayda yaradılmalıdır.

10. Bəzi teatrların adları ilə yaradıcılıq fəaliyyətləri arasında uyarsızlıq var. Zənnimcə, Musiqili Komediya Teatrının adının Musiqili Teatr qoyulması potensial yaradıcılıq imkanı olan kollektivi 113 illik fəaliyyətindən sapdırıb. Qeyri-müəyyən janrlı tamaşalar repertuarda yer alır.

11. Dramaturqlarla teatrların yaradıcılıq əlaqə bağlarını möhkəmləndirmək üçün pyes alınmasının və qonorar ödənilməsinin şərtləri ciddi nəzərdən keçirilərək nizama salınmalıdır.

12. Teatrın yaradıcılıq konsepsiyasını birmənalı şəkildə baş rejissor və ya bədii rəhbər müəyyənləşdirməlidir. Direktorların yaradıcılıq hegemonluğu iddialarına son qoyulmalıdır.

13. Dünyanın heç bir teatrında aktyoru yaşa görə təqaüdə çıxarmırlar. Meyar yalnız istedaddır və bu da ən obyektiv ölçüdür. Gizlin deyil ki, teatrlarımızda kifayət qədər istedadsız gənc var və kollektivləri onlardan təmizləmək lazımdır. Gücü, enerjisi, yaradıcılıq ehtirası fəal olan sənətkarlara “yaş” iddiası ilə yanaşmaq, zənnimcə, doğru deyil. Xatırladıram: SSRİ Xalq artisti fəxri adına Milli Dram Teatrının sənətkarlarından Mirzağa Əliyev 65 yaşında, Sidqi Ruhulla 62 yaşında, İsmayıl Osmanlı 72 yaşında, İsmayıl Dağıstanlı 67 yaşında, Azərbaycanın Xalq artisti fəxri adına Rza Təhmasib 70 yaşında, Lütfi Məmmədbəyov 67 yaşında, Gənc Tamaşaçılar Teatrında Süleyman Ələsgərov 67 yaşında, Ağakişi Kazımov 66 yaşında, Hüsenynağa Sadıqov 65 yaşında, Gəncə teatrında Məmmədəli Balayev 75 yaşında, Vaqif Şərifov 69 yaşında, İrəvan teatrında Vidadi Əliyev 76 yaşında layıq görülüblər (siyahını xeyli uzatmaq da olar).

14. Ayrı-ayrı teatrların illik yaradıcılıq fəaliyyətləri teatrşünaslar tərəfindən təhlil edilərək, yazılı şəkildə Mədəniyyət Nazirliyinə verilməsi və onun əsasında müvafiq tədbirlər görülməsi səmərəli olar. Bunun üçün nazirlik müəyyən məbləğ qarşılığında teatrşünaslarla müqavilə bağlaya bilər.

15. Çağdaş zamanda bütün ağırlığı dövlət büdcəsinin üzərinə qoymaq düzgün deyil. Respublikamızın işğaldan azad edilmiş rayonlarında möhtəşəm quruculuq işləri aparılır. Teatrların biznes qolunu tətbiq və inkişaf etdirmək lazımdır ki, sənət ocağı əlavə gəlirlərə nail ola bilsin. Bunun üçün teatrın ştatına peşəkar menecer götürülməlidir. Yaxud, teatr hansısa özəl menecerlər qurumu ilə müəyyən şərtlərlə müqavilə bağlaya bilər. Menecer Azərbaycanın bölgələrinə və xarici ölkələrə teatrın qastrollarını, müxtəlif müqavilələrin reallaşmasını, sponsorlarla əlaqələri tənzimləyər.

16. İmkanlı şirkətlərlə sponsorluq əlaqələri qurulmalı, ikitərəfli razılaşdırılmış qarşılıqlı əməkdaşlıq şərtlərinin müqaviləsi bağlanılmalıdır. Teatr afişa və məramnamələrində (tamaşa proqramlarında) həmin şərtlər əsasında sponsorluq edən qurumun reklamının yerləşdirmə forma və prinsiplərini reallaşdırmalıdır.

17. Azərbaycanın imkanlı bankları ilə müxtəlif müddətlərə (1, 2, 3 illik və s.) müqavilələr bağlana və teatr afişa və proqramlarında müntəzəm olaraq həmin bankın reklamını yaya bilər. Bunun müqabilində həmin bank teatrın yaradıcı heyətinə güzəştli kreditlər verə bilər. Bu kreditlərlə xüsusən gənc aktyorlar mənzil və digər vacib sosial problemlərini həll etmiş olarlar.

Mədəniyyət Nazirliyinin yeni rəhbərliyinin işgüzarlığına, prinsipiallığına, teatrlarımızın səriştəli peşəkarlarının güclərinə, yaradıcılıq coşqunluğuna böyük ümid və inamla yazıma nöqtə qoyuram.